# Komandanı xalq seçəndə

(Əvvəli 3-cü səhifədə).

əraziləri boşaldacağını açıq şəkildə bəyan etməlidir və bundan sonra əlbəttə ki, danışıqlar başlaya-



caqdır..."

"Əsas prinsiplərdə vaxt çərçivəsi ilə bağlı müəyyən fikirlər var idi. Hansı mərhələdə rayonların birinci, hansı mərhələdə ikinci hissəsi boşaldılacaq. Beləliklə, bunu müzakirə etmək olar. Lakin aydındır ki, işğal olunmuş bütün ərazilər qaytarılmalıdır. Bütün azərbaycanlılar öz qanuni torpaqlarına qayıtmalıdır"...

O, həmçinin torpaqlarımızdan öz mənfəətləri üçün qeyri-qanuni istifadə edildiyini və buna tezliklə son qoyulacağını, döyüş meydanında da onlara ordumuzun, xalqımızın kim olduğunu, fakt olaraq onları məğlub etdiyimizi qətiyyətlə bildirmişdir.

"Ermənistanın gələcəyi yoxdur, çünki bazar kiçikdir və daha da kiçilir, əhali azalır, miqrasiya çox yüksəkdir.

Onlar bizim torpaqlardan qeyri-qanuni məhsullar üçün istifadə edirlər. Onlar nəinki bizim torpaqlarımızdan, Kəlbəcərdə bizim qızıl mədənlərimizdən istifadə edirlər. Fəaliyyətlərini dayandırmadıqları təqdirdə orada bizim məhkəməyə verəcəyimiz əcnəbi şirkətlər var. Yeri gəlmişkən, onlar istənilən halda tezliklə fəaliyyətlərini dayandıracaqlar...

Ermənistan tənəzzülə uğrayır, biz isə inkişaf edəcəyik. Bizim əhalimiz artır. Türkiyənin əhalisi 83 milyon, Azərbaycanın əhalisi 10 milyon, Ermənistan əhalisi isə 2 milyondan azdır. Onlar artıq bu təcavüzə son qoymalıdırlar. Biz döyüş meydanında da onlara kimin kim olduğunu göstərdik. Biz onları məğlub edirik"!

**Mənəvi ruh**

Çətin günlərdə hər bir azərbaycanlı İlham Əliyevin - Ali baş Komandanın ətrafında səfərbər oldu, hər kəs milli həmrəylik nümayiş etdirdi. İnformasiya məkanında, sosial şəbəkələrdə işğalçı Ermənistana və onun təbliğatına qarşı güclü cəbhə açıldı. Əsgərlərimizin mübarizliyi, qəhrəmanlığı cəmiyyətimizə mənəvi ruh verdi.

İndi hər kəs düşünür ki, biz birlikdə güclüyük və Qarabağ Azərbaycandır!

**BİBİXANIM.**

# Güc birlikdədir

Ölkə başçısı tərəfindən aparılan uğurlu siyasət nəticəsində dövlətimiz günü-gündən gücləndi. Ordumuz dünyanın ən güclü orduları sırasında yer aldı.Cənab Prezident hər zaman çıxışlarında qeyd edirdi ki, biz istəmirik qan tökülsün,amma bu o demək deyil ki,biz torpaqlarımızı kimsəyə pay edəcəyik. Lazım gələrsə, hərb yolu ilə torpaqlarımızı işğaldan azad edəcəyik və nəhayət, həmin gün yetişdi.

Ali Baş Komandanın əmri ilə düşmən təxribatının qarşısı alınaraq torpaqlarımızın işğaldan azad olunmasına qərar verildi.

Hər bir Azərbaycan vətəndaşı kimi mən də çox xoşbəxtəm ki,bu günü görmək bizlərə nəsib oldu. Hər gün cəbhədən gələn xoş xəbərlər bizləri daha da ruhlandırır, əsgərlərimizin döyüş əzmini artırır.

Bu gün Azərbaycan xalqı öz şərəfli yolunu keçir.Belə ki,artıq 30 ilə yaxındır ki,işğal altında olan torpaqlarımız düşmən tapdağından azad edilir.Bu yolda apardığımız mübarizə Ali Baş Komandanımızın vurğuladığı kimi, bizim haqq işimizdir və bu yolda sona qədər gedəcəyik, bütün torpaqlarımızı düşmən tapdağından azad edəcəyik.

Başladığımız bu vətən müharibəsi hər bir Azərbaycan vətəndaşını qürurlandırır,çünki hər kəs çoxdandır ki,həsrətində olduğu doğma torpaqlarımıza qayıtmaq istəyir.

Bu haqq işimizdə bütün xalqımız səfərbər oldu və uşaqdan böyüyə hər kəs Ali Baş Komandanımızın ətrafında sıx birləşərək ordumuza dəstək oldu,öz həmrəyliyini göstərdi.

Vətən müharibəmizdə dövlətimizə ən böyük mənəvi dəstək verən isə qardaş Türkiyə dövləti oldu.Qardaş Türkiyə Azərbaycanın bu haqq işini dəstəklədi və bu mübarizədə sonadək Azərbaycanın yanında olduğunu bildirdi.Beləliklə,həm qardaş Türkiyədən gələn dəstək,həm Ali Baş Komandan və xalqımızın eyni cəbhədə sıx birləşməsi imkan verir ki,hər ötən gün torpaqlarımız qarış-qarış düşmən tapdağından azad olunur.-Hər birimiz cənab Prezidentimizin yanındayıq,inanırıq ki,rəşadətli Azərbaycan ordusu düşmənə öz yerini göstərəcək (necə ki,göstərir) və işğal altında olan bütün torpaqlarımız düşmən tapdağından azad ediləcək,dövlətimizin ərazi bütövlüyü təmin olunacaq.

**Ruslan İSMAYILOV,**
**Vəndam qəsəbə 1 saylı tam orta məktəb.**

# Döyüşdə bərkiyənlər



***Müsahibim qazi idi. Müharibəni görmüş, onu yaşamış, ömrünün ən gözəl çağlarını, sağlamlığını torpaq uğrunda, vətən uğrunda fəda etmiş bir eloğlu! Üzündə həm müharibə, acılar, qan-qadanın iz saldığı hiss olunurdu, həm də bu günlə bağlı sevinc işartıları. Bu sevinc işartıları bu günkü müharibədən danışdıqca sanki hayqırırdı, üzünə işıq qonurdu qazimizin. İtirdikləri silahdaşlarından söhbət açanda nəmlənən gözlərindən, o illərdəki müharibədə fədakarlıqla döyüşə də, işğalda qalan, 30 il əsir olan torpaqlarımızın qəlbinə yüklənən hay-harayı onun yaddaşını əzir, simasına nəmli-buludlu bir görkəm verirdi, baxışlarına kölgə salırdı.***

***Ancaq Ali Baş Komandanımız İlham Əliyevin Azərbaycan ordusu, azərbaycanlı əsgərlərlə birgə qazandıqları qələbələrdən söhbət açanda onun gözlərində günəş şəfəqlərinə, qəlbinin dağa dönməsinin canlı şahidi olduq. Hər gün qazanılan qələbə bizi Azərbaycanımızın bütövlüyünə, Qarabağın Azərbaycan olmasına, ən başlıcası böyük qələbəyə yaxınlaşdırır - dedi qazimiz.***

***Onunla olan söhbətimizi sizinlə də bölüşmək istədik.***

***Sizi tanımaq istərdik, xahiş edirəm «Qəbələ» oxucusuna özünüzü təqdim edəsiniz.***

Kərimov Rövşən Mösüm oğlu. Qədim Qəbələ torpağında 1974-cü ilin iyun ayının 28-də doğulmuşam. Şəhər 2 saylı orta məktəbini bitirmişəm. Ailəliyəm. 3 övladım var. Birinci Qarabağ müharibəsinin iştirakçısıyam.

***Sizin yeniyetməlik çağlarınız, gəncliyin astanasında olduğunuz illər demək olar ki, təlatümlü bir dövrə təsadüf etmişdir. Siz əsgəri xidmətə nə vaxt getmisiniz və neçə il xidmət etmisiniz?***

Doğru deyirsiniz. Biz müharibə dövrünün gəncləri olmuşuq. Orta məktəb məzunlarımızın arzuları haçalanır, sənət, peşə seçimi barədə oğlanlarımız fikirləşməyi özlərinə sığışdırmazdılar. Çünki Vətən torpaqlarımızın müdafiəsi bizi gözləyirdi. 90-cı illərin hadisələri hələ orta məktəbdə oxuyarkən bütün düşüncə və fikirlərimizi gərginləşdirmişdi. Erməni işğalçılarının öz havadarları ilə birlikdə torpaqlarımızda törətdikləri terror aktları, dinc əhaliyə divan tutması bizim yaddaşlarımıza qara hərflərlə yazılırdı.

Belə gərgin bir zamanın əsgəri olmuşam mən də. 1992-ci ildə hərbi xidmətə çağırılmışam, 4 il Vətənimə xidmət etmişəm.

***Rövşən, sizin əsgəri xidmət illəriniz Dağlıq Qarabağ münaqişəsinin ən qaynar bir dövrünə təsadüf etmişdir. Müharibə anlayışı olmayan bir gənc üçün o illərin əsgəri olmaq yəqin ki, sizdə müharibə xofu yaratmışdır. Qorxu hissi keçirirdinizmi?***

1988-ci ildən sonra başlanan hadisələr, 90-cı illərin acıları bizi döyüşçü, vətənpərvər kimi yetişdirirdi. Yəni biz uşaqkən müharibə haqqında kitablarda oxusaq da, zaman bizi müsəlləh əsgər kimi yetişdirirdi. Bizim qorxu hissimiz heç «doğulmadı». Biz o illərin acılarının baislərinə lənət və xalqımıza bunu yaşadanlara nifrət, intiqam hissi ilə böyüdük. Qəlbimizdə bir hiss yaşadı, Vətən mənə oğul desə... Vətən məni çağırarsa... O illərin uşaqları daha tez böyümək istəyirdi, Vətənə xidmət, kişi kimi yaşamaq üçün! Elə bu istəklə də Vətənə gərəkli olduğum üçün sevinc hissləri ilə 1992-ci ildə hərbi xidmətə başladım. Əvvəlcə Nasosluda olduq, təlimlər keçdik. Mən xüsusi təyinatlılar bölməsində xidmət etmişəm.

***Hansı döyüş bölgələrində olmusunuz?***

Əvvəlcə Tərtərdə olduq. Xidmət illərində döyüş «xəritəm» - Tərtər, Ağdam, Ağdərə, Kəlbəcər, Aşağı və Yuxarı Çaykənd, Qlobus, Akopkomari rayon və kəndləri, yüksəklikləri əhatə edirdi. Əlbəttə, biz kəndlərin adları ilə deyil, yüksəkliklərin adları ilə tanıyırdıq döyüşdüyümüz bölgələri. İndiki Suqovuşanda döyüşmüşəm, 30 ilə yaxın bir dövr ərzində o kəndlərin əksəriyyətinin adları dəyişdirilmişdir. Murov dağının ətəklərində də olmuşam.

***Mənə məlumdur ki, siz 2 dəfə yaralanmısınız və sağaldıqdan sonra yenidən döyüşlərdə iştirak etmisiniz.***

Doğrudur, 1994-cü ilin yanvar ayında Ağdərə döyüşlərində yaralandım. Yaram çox ağır deyildi. 1 aya yaxın Tərtərdə müalicə aldıqdan sonra yenidən döyüşlərdə iştirak etmişdim.

1994-cü ilin may ayının 2-də Qırmızıkənd uğrunda gedən döyüşlərdə yenidən yaralandım. Saatlı rayon hospitalında 2 ay müalicə olundum. O günlərdə mənim həmyerli döyüşçü dostlarım Şamil (Bum) mayın 3-də, Eyyub (Çuxur Qəbələ) isə mayın 4-də yaralanmışdı. Mayın 5-də isə atəşkəs elan olunmuşdu.

***Atəşkəs olduqdan və müalicəniz də başa çatdıqdan sonra daha döyüşmədiniz ki? Atəşkəsdən sonra hansı hisslər keçirirdiniz? Sevincmi, təəssüfmü?***

Əlbəttə, bu siyasi bir məsələdir, ancaq onu deyə bilərəm ki, dövlət rəhbərləri atəşkəs proqramını həyata keçirməklə müharibəni danışıqlarla, sülh yolu ilə davam etdirmək, torpaqlarımızı sülh yolu ilə işğaldan təmizləmək istəyirdi. Ancaq erməni öz xislətindən heç vaxt əl çəkmirdi. Atəşkəs olsa da elə həmin illərdə həmişə atəşkəs pozulmuşdur; hər gün, həmişə. Mən öz döyüşçü vəzifəmi əsgəri xidmətdən ayrılanadək - 1996-cı ilədək davam etdirmişəm. Biz döyüşçü dostlarımızla erməni əsiri gətirəndə də onların necə qorxaq, tülkü xislətli olduğunu bir daha gördüm. Atəşkəs olduqda özlüyümdə sevindim ki, qan tökmədən torpaqlarımız qaytarıla biləcək. Əlbəttə, haqq və ədalətə görə...

Təəssüflənirdim ki, kaş bizim də güclü silahlarımız, vahid sərkərdəmiz, komandamız ola, döyüşləri qələbə ilə başa vuraq...

***Bildiyimiz kimi, hazırda müharibə şəraitindəyik. 30 illik bir müddətdən sonra işğalda olan torpaqlarımız geri alınır. Birinci Vətən müharibəsi ilə ikinci - bu günkü Vətən müharibəsinin fərqi nədir? Bu haqda nə deyə bilərsiniz?***

İlk növbədə onu deyim ki, şəhid ruhları narahat deyil. Bir qazinin işğal altında olan torpaqlar azad olunduqca yaşadığı hisslər, sevinci həddə gəlməz, ölçüyə sığışmaz. Sanki yenidən doğuluram. Qaldı ki, bu müharibələrin fərqi - əlbəttə hər şey göz qabağındadır.O illərdə bizim güclü, vahid komandanımız yox idi, döyüş texnikamız yox idi, silah çatışmazlığı var idi. Ölkəmizdəki hərc-mərclik də bu müharibəyə mənfi təsir göstərirdi. O illərə bu illərin müqayisəsi yalnız milli vətənpərvərlik, döyüş əzmi, Vətənə məhəbbət,düşmənə nifrət hissi idi. Biz həvəslə, inamla döyüşürdük.

Bu gün Ali Baş Komandanımız və onun yaratdığı güclü ordumuz var. Yüksək siyasi biliklərə malik, xalqı öz ətrafında birləşdirən ölkə rəhbərimiz, döyüşçülərə qayğı, yüksək səviyyəli hərbi texnika, komandana inam, məhəbbət var. Ona görə də hər günümüz qələbə sorağı ilə başa çatır. Torpaqlarımız işğaldan təmizlənir. Qarabağ yenidən Azərbaycan olur.

***Bir döyüşçü kimi, bir qazi kimi deyə bilərsinizmi, iştirakçısı olduğunuz müharibə sizə nə öyrətdi, nə itirdiniz, nə qazandınız?***

Sağlamlığımı, qardaşlarımı, dostlarımı itirdim... Bu məni həmişə ağrıdır. 30 ilə yaxın itirdiyimiz torpaqlar da məni çox ağrıdırdı, ancaq inanırdım ki, o torpaqlar alınacaq, bizim olan bizə qaytarılacaq. Ancaq geri qayıtmayacaqların itkisi qəlbimdə əbədi acıdır. Müharibə məni bir insan kimi doğmalaşdırdı, yetkinləşdirdi, yaşımdan tez yaşlandırdı - həm hiss və düşüncələrimi, həm həyata baxışımı. Dostlar qazandım, əsl vətəndaş dostlar. Vətən sevgim daha da artdı, torpaq uğrunda ölən varsa Vətən olduğunu yaşadım.

***Qələbəyə inanırsınızmı?***

Necə inanmayım? Qələbə çox yaxındır! Hər gün döyüş bölgələrindən eşitdiyimiz xəbərlər qələbə deyilmi?! 4 il torpaqlarını qarış-qarış gəzdiyim Qarabağ bizim olub, bizim olacaq!

***Maraqlı söhbətinizə görə çox sağ olun!***

**Müsahibəni apardı:**
**Bibixanım İSAYEVA.**